ƏDLİYYƏ
www.justice.gov.az
Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı
881 ÇAĞRI MƏRKƏZİ
№ 08 (269) avqust 2026

# Ədliyyə naziri Lerik rayonunda vətəndaşları qəbul edib





**Ədliyyə naziri Fərid Əhmədov 7 avqust tarixində Lerik rayonunda vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Astara, Lerik, Lənkəran, Masallı, Yardımlı və Cəlilabad rayonlarından ümumilikdə 152 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı Nazirliyin aidiyyəti struktur qurumlarının rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

# Ədliyyə naziri təltif olunan əməkdaşlara medallarını təqdim edib

**Ədliyyə Nazirliyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qulluqçularının təltif edilməsi haqqında 23 iyun 2026-cı il tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətinə görə təltif edilmiş ədliyyə orqanlarının əməkdaşlarına medalların təqdim edilməsi mərasimi keçirilib.**




Tədbirdə çıxış edən ədliyyə naziri Fərid Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən ardıcıl hüquqi islahatlardan, ədliyyə sisteminin müasirləşdirilməsi istiqamətində görülən işlərdən, habelə dövlət qulluqçularının peşəkarlığının artırılmasına və sosial təminatının gücləndirilməsinə göstərilən xüsusi diqqət və qayğıdan danışıb.

Nazir dövlət başçısının müvafiq Sərəncamı ilə təltif olunan əməkdaşları təbrik edərək bildirib ki, dövlət mükafatları onların göstərdikləri səmərəli fəaliyyətə, peşəkarlığa və dövlət qulluğuna sədaqətlə xidmətlərinə verilən yüksək qiymətin ifadəsidir.

Daha sonra Fərid Əhmədov təltif olunan əməkdaşlara medalları təqdim edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 23 iyun 2026-cı il tarixli müvafiq Sərəncamı ilə Ədliyyə Nazirliyinin əməkdaşları Arifə Paşayeva, İsa Yusifov və Xatirə Almazova "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunublar.

# Ədliyyə nazirinin müavini videoqəbul keçirib

**Ədliyyə Nazirliyi vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə mütəmadi olaraq videoqəbullar təşkil edir.**

Avqustun 19-da Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov tərəfindən Şəki, İmişli, Sumqayıt, Şirvan, Lənkəran və Gəncə regional ədliyyə idarələri ilə birlikdə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbul keçirilib.

Videoqəbulda penitensiar sahə ilə bağlı qəbulda iştirak etmək üçün müraciət edən 18 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.



## Ədliyyə Nazirliyinin Penitensiar xidmətinə qulluğa qəbul olunmuş əməkdaşların andiçmə mərasimi keçirilib



**Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin Mühafizə alayının və penitensiar müəssisələrin vakant ştat vahidlərinin komplektləşdirilməsi və şəffaflığın təmin olunması məqsədilə əvvəlcədən dərc edilmiş elanlara uyğun olaraq müraciət etmiş və seçim mərhələlərini uğurla başa vurmuş 35 nəfər yeni əməkdaşın andiçmə mərasimi keçirilib.**

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda şəhid olmuş vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov hərbi qulluqçu kimi gizir, həmçinin kiçik rəis heyəti vəzifələrinə təyin edilərək xüsusi rütbələr almış əməkdaşlara ədliyyə naziri Fərid Əhmədovun təbriklərini çatdırıb, onlara gələcək xidmətlərində uğurlar arzulayıb, ədliyyə işçisi adını şərəflə daşımağı tövsiyə edib.

Çıxış edən gənclər onlara göstərilən etimadı doğrultmaq üçün var qüvvələri ilə çalışacaqlarını, ədliyyə işçisi adını daim uca tutacaqlarını bildiriblər.

Sonda təntənəli qaydada and içən əməkdaşlara xidməti vəsiqələr təqdim edilib.

## Hərbi xidmətə yeni çağırılmış əsgərlərin andiçmə mərasimi keçirilib



**Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin Mühafizə alayında həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin andiçmə mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Azərbaycan Respublikasının Dövlət Bayrağı hərbi marş sədaları altında meydanın mərkəzinə gətirilib, şəhidlərin abidəsi önünə gül dəstələri qoyulub, onların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gənc əsgərlər təntənəli şəkildə Hərbi Anda gətirildikdən sonra ədliyyə naziri Fərid Əhmədovun təbrik və tövsiyələri onlara çatdırılıb.

Andiçmə mərasimində Vətənə, xalqa və dövlətə sədaqət andı içən gənc əsgərlər Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin əmrinə hər zaman hazır olduqlarını, nizam-intizamı qoruyacaqlarını bildiriblər.

Sonda şəxsi heyətin marş sədaları altında təntənəli keçidi izlənilib.



## Vəkillər üçün özəl məhkəmə ekspertizası institutuna dair icbari təlim keçirilib





**Avqustun 3-də Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə vəkillər üçün özəl məhkəmə ekspertizası institutuna dair icbari təlim keçirilib.**

Təlim "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya"nın Tədbirlər Planının 8.3.1-ci yarımbəndinin icrası çərçivəsində təşkil olunub. Tədbirin məqsədi vəkillərin özəl məhkəmə ekspertizası institutunun mahiyyəti, hüquqi əsasları, fəaliyyət və tətbiq mexanizmləri, eləcə də beynəlxalq təcrübə barədə bilik və peşəkar bacarıqlarının artırılması olub.

Tədbiri giriş sözü ilə açan Vəkillər Kollegiyasının Tədris Mərkəzinin direktoru Əmir Əliyev iştirakçıları salamlayaraq təlimin əhəmiyyətindən bəhs edib, onun vəkillərin peşəkar bilik və bacarıqlarının artırılmasına mühüm töhfə verəcəyini bildirib.

Məhkəmə Ekspertizası Mərkəzinin rəis müavini Vüsal Məmmədov çıxışında ölkədə məhkəmə ekspertizası sahəsində aparılan islahatlar, ekspertiza fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülən işlər və bu sahədə vəkillərlə əməkdaşlığın əhəmiyyətindən bəhs edib.

Daha sonra Məhkəmə Ekspertizası Mərkəzinin Elmi-metodiki iş və təlim idarəsinin rəisi Aysel Kişiyeva özəl məhkəmə ekspertizası institutunun hüquqi mahiyyəti, fəaliyyət mexanizmləri, inkişaf perspektivləri və məhkəmə araşdırmalarında tətbiqi ilə bağlı təqdimatla çıxış edib.

İnteraktiv formatda keçirilən təlim zamanı mövzu üzrə beynəlxalq təcrübə və praktiki məsələlər müzakirə olunub, iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

Qeyd edək ki, əyani formada keçirilən təlimdə 42 vəkil iştirak edib.

## Ədliyyə Nazirliyinin daha bir xidməti "mygov" platformasına inteqrasiya edilib

**"Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"na uyğun olaraq vətəndaşlara göstərilən rəqəmsal xidmətlərin vahid platforma üzərindən əlçatanlığının artırılması məqsədilə Ədliyyə Nazirliyinin daha bir xidməti "mygov" platformasına inteqrasiya edilib.**




Belə ki, artıq Ədliyyə Nazirliyinin təqdim etdiyi "Azyaşlıya pasportun verilmə ərizəsi" xidməti də "mygov" platformasına inteqrasiya olunub. Xidmət vasitəsilə 18 yaşına çatmamış şəxslərə ümumvətəndaş pasportunun verilməsi üçün valideyn, övladlığa götürən, qəyyum və ya himayəçinin notariat qaydasında təsdiq edilmiş razılığını elektron formada rəsmiləşdirmək mümkündür. Bu imkan xüsusilə valideynlərdən birinin prosesdə fiziki olaraq iştirak edə bilmədiyi hallarda rahatlıq yaradır.

Xidmətdən istifadə etmək üçün vətəndaş "mygov" tətbiqində "Xidmətlər" bölməsinə daxil olaraq "Ailə" kateqoriyasından "Azyaşlıya pasportun verilmə ərizəsi" xidmətini seçir.

Xidmətə daxil olduqda vətəndaşın övladları barədə sistemdə olan məlumatlar avtomatik olaraq ekranda göstərilir. Məlumatlar əks olunmadıqda isə vətəndaş övladının məlumatlarını özü daxil edə bilər.

Daha sonra vətəndaş ərizə ilə tanış olur və tələb olunan məlumatları daxil edir. Növbəti mərhələdə məlumatlar notarius tərəfindən video verifikasiya vasitəsilə təsdiqlənir. Ödəniş həyata keçirildikdən sonra razılıq ərizəsinin elektron formada rəsmiləşdirilməsi prosesi tamamlanır.

İstifadəçilər müraciətin statusunu xidmətin "Tarixçə" bölməsindən izləyə bilərlər.

Bu xidmət pasportun verilməsi üçün birbaşa müraciət deyil. Xidmət yalnız pasportun verilməsi üçün tələb olunan notariat qaydasında təsdiq edilmiş razılıq ərizəsinin elektron formada rəsmiləşdirilməsinə imkan verir.

Qeyd edək ki, sözügedən xidmətlə yanaşı, Ədliyyə Nazirliyinin müxtəlif həyat hadisələri üzrə 5, notariat fəaliyyəti ilə bağlı 8 xidməti, eləcə də tərcümə və fiziki şəxslərə aid icra işləri barədə məlumatların təqdim edilməsi xidmətləri də "mygov" platformasına inteqrasiya olunub.

# Ədliyyə Akademiyasında təlimlər keçirilib

**Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası tərəfindən Məhkəmə-Hüquq Şurasının müraciəti əsasında hakimlər üçün "Cinayət işləri üzrə məhkəmə baxışının xüsusiyyətləri" mövzusunda təlim keçirilib.**

64 nəfər hakimin iştirak etdiyi təlimdə cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılmasına qarşı mübarizə, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlərin tövsifi və həmin cinayət işləri üzrə məhkəmə araşdırmasının xüsusiyyətləri, eləcə də xuliqanlıq cinayətləri ilə bağlı cinayət işlərinə baxılmasının xüsusiyyətləri diqqətə çatdırılıb.

Təlim zamanı qeyd olunan istiqamətlər üzrə mövcud məhkəmə təcrübəsi təhlil edilib, praktiki məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Nazirliyin regional ədliyyə idarələrinin və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşları üçün təlim "İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə fundamental qaydalar" mövzusuna həsr olunub.

Təlim çərçivəsində informasiya təhlükəsizliyinin əsas prinsipləri, kibertəhdidlərin qarşısının alınması, rəqəmsal resurslardan təhlükəsiz istifadə, məlumatların qorunması və kibertəhlükəsizlik insidentləri zamanı davranış qaydaları barədə iştirakçılara ətraflı məlumat verilib. Həmçinin güclü parollardan və çoxmərhələli autentifikasiyadan istifadə, elektron poçt və digər rəqəmsal platformalarla işləyərkən təhlükəsizlik tələblərinə riayət olunması ilə bağlı praktiki tövsiyələr təqdim edilib.





Ədliyyə Akademiyasında ədliyyə könüllülərinin peşəkar və şəxsi inkişafına, eləcə də müasir iş mühitində zəruri olan yumşaq bacarıqlarının inkişaf etdirilməsinə yönəlmiş təlimlərə başlanılıb.

Təlimlərin ilk proqramı "Vətəndaş məmnuniyyətinin təmin edilməsi" mövzusuna həsr olunub. Təlimlərin keçirilməsində əsas məqsəd könüllülərin vətəndaşlarla düzgün və səmərəli ünsiyyət qurmaq, onların müraciət və ehtiyaclarına həssas yanaşmaq, xidmət keyfiyyətini yüksəltmək, eləcə də peşəkar fəaliyyət zamanı qarşılaşa biləcəkləri müxtəlif situasiyalarda düzgün davranış nümayiş etdirmək bacarıqlarının formalaşdırılmasıdır.

Oktyabrın 30-dək davam etdirilməsi nəzərdə tutulan təlimlər çərçivəsində könüllülərə ünsiyyət bacarıqları, stressin idarə edilməsi, komandada işləmək, münaqişəli halların idarə edilməsi, etik davranış və vaxtın idarə edilməsi mövzularında praktiki bilik və bacarıqlar aşılanacaqdır.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşları üçün keçirilmiş təlimdə ədliyyə orqanlarında vətəndaşların qəbulunu tənzimləyən normativ hüquqi aktlardan irəli gələn tələblər, vətəndaşların qəbulunun təşkili qaydaları, müraciətlərə baxılması və qəbul prosesində qanunvericiliyin tələblərinə əməl olunması ilə bağlı ətraflı məlumat verilib.

Təlimdə Nazirliyin 70 əməkdaşı iştirak edib.

Bundan əlavə Nazirliyin Penitensiar xidmətinin əməkdaşları üçün "Maddi sübut əhəmiyyəti kəsb edəcək və ekspertiza tədqiqatına təqdim ediləcək əşyaların düzgün formada götürülməsi, qablaşdırılması və saxlanılması" mövzusunda təlim keçirilib.

Penitensiar xidmətin 20 nəfər əməkdaşının iştirak etdiyi təlimin keçirilməsində əsas məqsəd müvafiq əşyaların qanunvericiliyə uyğun şəkildə götürülməsi, qablaşdırılması, qorunub saxlanılması və tədqiqat üçün təqdim edilməsi qaydalarının mənimsənilməsindən ibarət olub.

# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

### "Femida Könüllüləri Təşkilatı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 13.10.2023-cü il
**Qeydiyyat N-si:** 1123-Q83-4218
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Vahabov Salman Adil oğlu olmuşdur
**Dəyişiklik:** 04.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Ruzgar" Ekoloji ictimai birliyi

**Qeydiyyat tarixi:** 23.05.1996-cı il
**Qeydiyyat N-si:** 840
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Mustafayev İslam İsrafil oğlu olmuşdur
**Dəyişiklik:** 05.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Qarabağın Tərəqqisi Naminə" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.09.2021-ci il
**Qeydiyyat N-si:** 1121-Q77-3947
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Səfərova Şəbnəm İlham qızı olmuşdur
**Dəyişiklik:** 05.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Beynəlxalq Dialoq və İnkişaf Alyansı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.04.2016-cı il
**Qeydiyyat N-si:** 1116-Q54-3380
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədova Nüşabə Ələsgər qızı olmuşdur
**Dəyişiklik:** 05.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "İşgüzar Qadınlar İnkişaf Naminə" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.10.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q23-2583
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Cabbarova Nərgiz Rasim qızı olmuşdur
**Dəyişiklik:** 07.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Yasamal-10" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 13.03.2017-ci il
**Qeydiyyat N-si:** 1117-MM4-0043
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən hazırki hüquqi ünvanı: Bakı şəhəri, Yasamal rayonu, Murtuza Muxtarov küçəsi, ev 185, mənzil 24, qanuni təmsilçisi Məmmədli Bil Hacı oğlu olmuşdur
**Dəyişiklik:** 10.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Sağlam Yaşa" gənclərin maarifləndirilməsi ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.11.2013-cü il
**Qeydiyyat N-si:** 1113-Q47-3232
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Qəribli Murad Tələt oğlu olmuşdur
**Dəyişiklik:** 11.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Birgə və Sağlam" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.08.2013-cü il
**Qeydiyyat N-si:** 1113-Q46-3196
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Eynalova Aytən Surxay qızı olmuşdur
**Dəyişiklik:** 11.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Nərimanov-40" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 29.04.2024-cü il
**Qeydiyyat N-si:** 1124-MM11-0313
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Kazımov Rəşad Qasımağa oğlu olmuşdur
**Dəyişiklik:** 11.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "ProDemos" ictimai birliyi

**Qeydiyyat tarixi:** 24.12.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q24-2628
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Hüseynov Tarif Həmid oğlu olmuşdur
**Dəyişiklik:** 11.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Gəncə Avro-Atlantik Məlumat Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 26.12.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q20-2470
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Xəlilov Mehman Sədrəddin oğlu olmuşdur
**Dəyişiklik:** 11.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Müasir Gənclik və Sosial İnkişaf" ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.04.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q10-2086
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əsədov Etibar Məhəmməd oğlu olmuşdur
**Dəyişiklik:** 11.08.2026-cı il tarixdə qeydə alınıb

### "Nəsimi-6" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 13.12.2016-cı il
**Qeydiyyat N-si:** 1116-MM3-0037
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən hazırkı hüquqi ünvanı: AZ 1102, Bakı şəhəri, Nəsimi rayonu, Asif Məhərrəmov küçəsi, giriş 8, M17, m5
Köhnə ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Asif Məhərrəmov küçəsi, ev 22A, mənzil 75, yeni qanuni təmsilçisi Quliyev Akif Qələndər oğlu olmuşdur
**Dəyişiklik:** 12.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Ortaq Dəyərlər" ictimai birliyi

**Qeydiyyat tarixi:** 24.12.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q24-2651
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Camal Aqil Tapdıq oğlu olmuşdur
**Dəyişiklik:** 13.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan futbolçuları" ictimai birliyi

**Qeydiyyat tarixi:** 07.11.2003-cü il
**Qeydiyyat N-si:** 1103-Q1-1484
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qurbanov Musa Osman oğlu olmuşdur

**Dəyişiklik:** 13.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "LAYF" xeyriyyə ictimai birliyi

**Qeydiyyat tarixi:** 27.07.2017-ci il
**Qeydiyyat N-si:** 1117-Q59-3505
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Abbasbəyli Əminə Kamandar qızı olmuşdur
**Dəyişiklik:** 13.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Dünya Gənc Türk Yazarlar" ictimai birliyi

**Qeydiyyat tarixi:** 02.06.1999-cu il
**Qeydiyyat N-si:** 1133
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Mirzəli Məleykə Azər qızı olmuşdur
**Dəyişiklik:** 13.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Nəsimi-40" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 21.06.2022-ci il
**Qeydiyyat N-si:** 1122-MM9-0245
Ümumi yığıncağın, idarə heyətinin qərarları və digər sənədlərə əsasən qanuni təmsilçisi Heydərova Kəmalə Aydın qızı olmuşdur
**Dəyişiklik:** 13.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Yasamal-66" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 24.05.2023-cü il
**Qeydiyyat N-si:** 1123-MM10-0288
İdarə heyətinin protokolu və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Sadıqlı Zemfira Əli qızı olmuşdur
**Dəyişiklik:** 17.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan-Britaniya Məzunları" ictimai birliyi

**Qeydiyyat tarixi:** 03.09.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q22-2545
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Cəbrayılova Fidan Süleyman qızı olmuşdur
**Dəyişiklik:** 17.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Yasamal-73" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 22.08.2024-cü il
**Qeydiyyat N-si:** 1124-MM11-0321
Ümumi yığıncağın iclasının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Əliyev Rövşən Məmmədhüseyn oğlu olmuşdur
**Dəyişiklik:** 17.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Gənc Fəallar və Liderlər Alyansı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.09.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q5-1898
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Musazadə Əminə Novruz qızı olmuşdur
**Dəyişiklik:** 18.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "STMEQİ Azərbaycan" humanitar fondu

**Qeydiyyat tarixi:** 22.06.2017-ci il
**Qeydiyyat N-si:** 1117-Q58-3485
Təsisçilərin və Himayəçilik Şurasının qərarları və digər sənədlərə əsasən qanuni təmsilçisi Davıdov Şavul Mixayloviç olmuşdur
**Dəyişiklik:** 18.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Dayaq" qeyri-hökumət humanitar yardım təşkilatı

**Qeydiyyat tarixi:** 28.09.1999-cu il
**Qeydiyyat N-si:** 1187
Konfransın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Seyidov Faiq Mir Əhməd oğlu olmuşdur
**Dəyişiklik:** 19.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Bir Təbəssüm" Vətənpərvərliyin Təbliğinə Yardım ictimai birliyi

**Qeydiyyat tarixi:** 12.08.2024-cü il
**Qeydiyyat N-si:** 1124-Q84-4270
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi İbrahimli İbrahim Mənsum oğlu olmuşdur
**Dəyişiklik:** 19.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Aztəminatlı Əlil, Şəhid və Müharibə Veteranları Ailələrinə Kömək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.09.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q13-2209
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Abdullayeva Məlahət İsfəndiyar qızı olmuşdur
**Dəyişiklik:** 19.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Qeyd-Sosial Maarifləndirmə" ictimai birliyi

**Qeydiyyat tarixi:** 10.08.2022-ci il
**Qeydiyyat N-si:** 1122-Q80-4086
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Nurməmmədov Tural İbrahim oğlu olmuşdur
**Dəyişiklik:** 20.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Sağlamlıq və Termal Turizminə Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 31.05.2013-cü il
**Qeydiyyat N-si:** 1113-Q45-3174
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Aşirov Ceyhun Qurban oğlu olmuşdur
**Dəyişiklik:** 21.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Aran" uşaqların sağlam gələcəyi ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.09.2009-cu il
**Qeydiyyat N-si:** 1109-Q29-2777
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni məqsədi: uşaqların sağlam mühitdə hərtərəfli inkişafına kömək etmək, uşaqların böyüdüyü ailə və sosial mühitdə infeksion təhlükəsizliyin təmin olunmasına dəstək vermək, bu çərçivədə qanunvericiliyə uyğun olaraq virus və yoluxucu xəstəliklərin profilaktikası ilə onların fəsadlarının qarşısının alınması istiqamətində müvafiq sosial və maarifləndirmə proqramlarını həyata keçirmək, qanuni təmsilçisi Hüseynov Qüdrət İbrahim oğlu olmuşdur
**Dəyişiklik:** 21.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Zəfər" şəhid ailələrinə dəstək ictimai birliyi

**Qeydiyyat tarixi:** 13.11.2018-ci il
**Qeydiyyat N-si:** 1118-Q65-3627
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni hüquqi ünvanı: Bakı şəhəri, Nəsimi rayonu, Ənvər Hüseynov küçəsi, ev 7, mənzil 153, qanuni təmsilçisi Alızadə Sevinc Əsgərxan qızı olmuşdur
**Dəyişiklik:** 24.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Səhhət" Sağlamlığa Dəstək ictimai birliyi

**Qeydiyyat tarixi:** 03.08.1994-cü il
**Qeydiyyat N-si:** 593
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənov Taryel Humay oğlu olmuşdur
**Dəyişiklik:** 24.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Sosial-İqtisadi Araşdırmalar" ictimai birliyi

**Qeydiyyat tarixi:** 24.09.2003-cü il
**Qeydiyyat N-si:** 1103-Q1-1479
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əliyeva Fərqanə Mustafa qızı olmuşdur
**Dəyişiklik:** 25.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Mərhəmət Ocağı" qadın və uşaqların sosial inkişafına yardım ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.09.2018-ci il
**Qeydiyyat N-si:** 1118-Q64-3616
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi İsmayılova Elizə Sahadulla qızı olmuşdur
**Dəyişiklik:** 25.08.2026-cı il tarixdə qeydə alınıb

### "Mingəçevir Valideynlər Assosiasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.12.2004-cü il
**Qeydiyyat N-si:** 1104-Q3-1680
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni hüquqi ünvanı: Mingəçevir şəhəri, Həsən bəy Ağayev küçəsi, giriş 22, qanuni təmsilçisi Nəbiyev Fərman Bəhram oğlu olmuşdur
**Dəyişiklik:** 25.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Müstəqil Araşdırmaçı Jurnalistlər Liqası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 04.04.2002-ci il
**Qeydiyyat N-si:** 1367
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Mehdiyev Qafar Qələndər oğlu olmuşdur
**Dəyişiklik:** 26.08.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### ELAN

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin 30.10.2008-ci il tarixli 1108-Q23-2579 nömrə ilə dövlət qeydiyyatına alınmış "Azərbaycan Musiqisinin İnkişafı və Tədrisi" İctimai Birliyi ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində təşkilata olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, İnşaatçılar prospekti, ev 28, mənzil 48.

***

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 28.03.2013-cü il tarixli 1113-N2-0004 nömrə ilə dövlət qeydiyyatına alınmış Birləşmiş Ərəb Əmirliklərinin hüquqi şəxsi olan Dubay Ticarət və Sənaye Palatasının ("Dubai Chamber of Commerce & Industry") Azərbaycan Respublikasındakı nümayəndəliyi ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Səbail rayonu, Nizami küçəsi, 90A.

***

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 26.11.2015-ci il tarixli 1115-MM20019 nömrə ilə dövlət qeydiyyatına alınmış "Xətai-4" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində tələblərini aşağıda göstərilən ünvana bildirsinlər:
Bakı şəhəri, Xətai rayonu, Məhəmməd Hadi küçəsi, ev 73A, mənzil 12


| | | | |
|---|---|---|---|
| **Təsisçi:** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi **Buraxılışa məsul:** Rasim Həsənov | **Ünvan:** Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1. Tel: 510-10-01 (10607) | Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur. Qəzet ayda bir dəfə çıxır. | Reyestr N 769 |